

*Qısa arayış: İsmayıl Nəbi oğlu Nuriyev 1947-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Əzmik kəndində anadan olmuşdur. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 17 noyabr 1947-ci il tarixli 115-2043 saylı əmrinə əsasən 1949-cu ilin dekabr ayında ailəliklə Azərbaycan SSR-in İmişli rayonunun Qaralar (Əzizbəyov) kəndinə köçürülmüşdür. 1954-cü ildə Qaralar kənd 7 illik məktəbinin 1-ci sinfinə daxil olan İsmayıl 7 il sonra oranı bitirmiş və sonrakı təhsilini 1961-1965-ci illərdə Bəcirəvan kənd orta məktəbində almışdır.*

# «60 yaş nədir ki...»

## Həmsöhbətim – İmişli Rayon Mədəniyyət və Turizm Şöbəsinin inspektoru İsmayıl Nuriyev sorğu-sualımız zamanı bu fikri dönə-dönə vurğuladı...

Bir il sonra ali təhsil almaq üçün arzusunun sorağı ilə sənədlərini M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutuna təqdim etmiş və tələbə adını qazanmışdır. 1971-ci ildə ali məktəbi bitirdikdən sonra əsgəri borcunu ödəmək üçün hərbi xidmətə çağırılmışdır. Ordudan tərxis olunduqdan sonra öz istəyinə uyğun olaraq 1973-1974-cü illərdə RSFSR-in Tula vilayətinin Kamenski rayon mədəniyyət evində direktor işləmişdir. 1974-cü ilin noyabr ayında İmişli rayon XDS İcraiyyə Komitəsinin tələbi ilə rayona qayıtmış və mədəniyyət evinə bədii rəhbər təyin olunmuşdur. Sonrakı illərdə mədəniyyət evinin direktoru, «Araz» mədəniyyət sarayının direktoru, rayon mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru, 2001-ci ilin aprelindən isə İmişli Rayon Mədəniyyət və Turizm Şöbəsinin inspektoru vəzifəsində çalışır. Ailəlidir, iki övladı, üç nəvəsi var.

... Onunla üzbəüz əyləşmişik. Həmiz öz içimizdə fikir-xəyallar aləmindəyik. Onun nə düşündüyünü deyə bilmərəm. Özümə gəldikdə isə... Xəyal məni nə az, nə çox, düz otuz il bundan əvvəlki illərə aparıb çıxarır. Nədənsə son vaxtlar bu tarixi tez-tez xatırlamalı oluram. Bəlkə də ondandır ki, 30 il öncə, 1977-ci ilin avqust ayında doğma rayon qəzeti «Qızıl Ulduz»da əmək fəaliyyətinə başladım. Elə ilk vaxtlarda mən artıq özüm üçün yəqinləşdirdim ki, jurnalistika heç də mənim bir vaxtlar ideallaşdırdığım əlçatmaz, ünyetməz peşələrdən deyilmiş. Mən o vaxtlar çox romantik bir ab-hava ilə yaşayırdım və hər dəfə telekanallarda hansısa bir reportiyorun, jurnalistin uzaq-uzaq xarici ölkələrdən hazırladığı verilişlərə baxdıqca özüm də bilmədən özümü onun yerində hiss edər, fərəhimdən uçmağa qanad axtarardım. O gün ki, Azərbaycan Dövlət Universitetini bitirdik, elə o andaca bütün xoş xəyallarımızın üstündən xətt çəkildi. Uşaqlarımızın tam 90 faizi şəhərdə qaldı, özlərinə münasib iş tapdılar. Mənim kimi az bir qismi isə ətalət, dedi-qodu yuvasına – bölgələrə üz tutduq. Və ən böyük səhvi də onda etdik. Düşünülməmiş, yüz ölçülüb bir biçilməmiş addımın əzab-əziyyətlərini, gərginliklərini bu gün də çəkməkdəyik.

... İsmayıl müəllimlə də elə əmək fəaliyyətimizin ilk aylarında görüşüb tanış olduq. Onda İsmayıl Nuriyev İmişli rayon Mədəniyyət evinin direktoru işləyirdi. Yaxşı xatırlayıram ki, toru pambıqçılara göstərilən mədəniyyət və səhiyyə xidmətləri mövzusunda qəzet üçün bir səhifəlik material hazırlamaq tapşırığı almışdım. Redaksiyamızdan sürücü mərhum Xəlil Xəlilovun «Qaz-69»unda «ağ qızıl» tarlalarına yola düşdük. M.B.Qasımov adına təsərrüfatda olarkən artıq nahar fasiləsi idi. İsti avqust günəşi yandırıb yaxırdı. Pambıqçıların istirahət saatlarını mənalı keçirmək məqsədilə rayonun mədəniyyət işçiləri onlarla görüşə gəlmişdi. Aparıcılığı İsmayıl müəllim həyata keçirirdi. Onun ifasında səslənən hər bir poeziya nümunəsi o qədər böyük maraq doğururdu ki, içimdə İsmayıl Nuriyevə isti bir münasibət yarandı və beləliklə şəxsi tanışlığımızın əsası qoyuldu. Və indi özümüzdən də asılı olmadan hər ikimiz o günlərə qayıtdıq.

**- *İsmayıl müəllim, onda siz qara, şəvə saçlı, yaraşıqlı və enerjili bir cavan idiniz...***

- Elə siz də. Açığı mən də sizi ilk dəfə görürdüm. Baxmayaraq ki, rayon qəzeti işçilərinin hamısı ilə xoş ünsiyyətim vardı. İndi onlardan çoxu – Cəfər Qarayev, Şükür Seyfullayev, Əli Əliyev aramızda yoxdur. Allah ruhlarını şad eləsin. Siyab Məmmədov, Arif Əliyev və Səməd İsmayılovla indi də münasibətlərimiz normaldır. Sizinlə ilk görüşümüz məndə xoş təəssürat yaratdı. Həmin gün xatirə olaraq şəkil də çəkdirdik. O şəkilləri bu gün də şəxsi arxivimizdə əziz xatirələr kimi saxlayıram. Ümumiyyətlə arxivimdə 35 illik əmək fəaliyyətim illərində haqqımızda dərc olunmuş qəzet və jurnal materiallarını, foto-şəkillərin hamısını saxlayıram. Bu gün də görüşə həmin nümunələrdən bəzilərini gətirmişəm.

**- *Əmək kitabçanıza nəzər yetirər-***

***kən bildim ki, 1973-1974-cü illərdə RSFSR-in Tula vilayətinin Kamenski rayonunda mədəniyyət işçisi kimi çalışmısınız...***

- Bəli, bu həqiqətən belədir. 1971-ci ildə ali məktəbi bitirdikdən sonra vətən borcumu ödədim. Hərbi xidmətdən qayıtdıqdan sonra Tulaya üz tutdum. Bunadək mən tələbəliyin tətili vaxtlarında bir neçə dəfə sözü gedən ünvanda olmuşdum. Dayım Hüseyn orada yaşayırdı. Yefrimov şəhərində. Bizim Sumqayıt kimi şəhər idi. Kamenski buradan 40 kilometrlik bir məsafədə yerləşirdi. Kənd rayonu idi. Gözəl, füsunkar təbiəti vardı. Əhalisinin əsas məşğuliyyəti heyvandarlıq, kartofçuluq və çuğundurçuluq idi. Əsgərlikdən gələndən sonra yenidən Yefrimovskiyə üz tutdum. Mənim üçün çox maraqlı idi ki, görüm buralarda mədəniyyətin səviyyəsi necədir. Rayon mərkəzini gəzirdim ki, bir yaraşıqlı, ikimərtəbəli binaya rast gəldim. Bura mədəniyyət sarayı idi. Sakit addımlarla direktorun otağına qalxdım. Məni orta yaşlı, Kişinski soyadlı bir şəxs qarşıladı. Öyrəndim ki, o rayonun idleoloji katibidir. Tanış olduq, mənim məqsədlərimi biləndə çox şad oldu və məmnuniyyətlə məni mədəniyyət evinə direktor işinə dəvət etdi. Lakin razılaşmadım. Metodkabinəni təklif etdilər. Beləcə ali təhsilli bir mütəxəssis kimi iki il burada çalışdım. Bir çox problemlərə baxmayaraq çox həvəslə işə başladım. Rəqs gecələrini yaratmağım xüsusən böyük rəğbətlə qarşılandı. Mənə böyük diqqət göstərdilər, üç otaqlı ev verdilər, hörmət, ehtiram sahibi oldum. İki il işləmişdim ki, Azərbaycandan, doğma İmişlinin İcraiyyə Komitəsindən tələbnamə gəldi. Bu artıq ikinci müraciət idi. İxtisaslı kadr kimi məni öz rayonumuza işə dəvət edirdilər. Ürəyimdən olsa da 1974-cü ilin noyabrında İmişliyə qayıdası oldum. Məni rayon mədəniyyət evinə bədii rəhbər təyin etdilər. Sonrasını da özünüz bilirsiniz.

***- İsmayıl müəllim, bəlkə də yerinə düşmür, amma soruşmaq istəyirik. Bu müddətdə çox vəzifələrdə çalışsanız da müdir ola bilməmisiniz. Niyə?***

- Səmimi sözümdür. Mən daima hərəkətdə olmağı xoşlayan insanam. Kabinetdə vaxt keçirməyi, sığal-tumar çəkməyi sevmirəm. Amma mənə iki dəfə mədəniyyət şöbəsinin müdirliyi təklif olunub. Zəridə Rüstəmovanın və Xanhüseyn Bəylərovun İmişliyə rəhbərlikləri dövründə. Hər ikisində də imtina etmişəm.

***- Gəlin açıq danışaq. İmişli mədəniyyət və incəsənətinin bugünkü səviyyəsi sizi qane edirmi?***

- Qane etmir. Bunun da obyektiv və subyektiv səbəbləri var. Sovetlər dövründə mədəniyyət işində daha ciddi rabitə vardı. Bu heç də demək deyildir ki, mən nastalji hisslərlə yaşayıram.

Xeyr, fikrim başqadır. Keçid dövrünün ziddiyyətləri, yersiz islahatlar digər sahələrlə yanaşı, mədəniyyət və incəsənətimizə də elə zərbələr vurdu ki, hələ də bərpa etmək mümkün deyil. Bu təkcə İmişli üçün yox, bütövlükdə respublikamız üçün xarakterikdir. İmişli mədəniyyətinə gəldikdə isə... Doğrudur, son illər bir çox diqqəti cəlb edən işlər görülmüşdür. Şöbəmizin müdiri Hasil Tağıyevin xidmətlərini danmaq olmaz. Amma yenə də təkrar edirəm, hazırki səviyyə ürək açan deyildir.

***- Qazandıqlarınız çox olub, itirdikləriniz?***

- Hər ikisi qədərincədir. Bəzən elə istəklərimin üstündən xətt çəkiblər ki, bu gün də məni yandırır. 15-20 il öncə İmişli mədəniyyət sarayının nəzdində xalq teatrı yaratdıq. İnsafən işlərimiz yaxşı da alınırdı. Bir neçə tamaşa hazırlayıb tamaşaçılar qarşısında çıxış etdik. Geniş auditoriya qazandıq. Amma nə olsun ki, ciddi manеələrlə üz-üzə dayandıq. Nəticədə Mədəniyyət Nazirliyi bizi qeydiyyatdan keçirmədi. Qazandığıma gəldikdə isə... Çoxlu dostlar qazanmışam.

***- Bu gün İmişlini çox uzaqlarda ləyaqətlə təmsil edən incəsənət xadimləri ilə əlaqələriniz normaldırmı?***

- Kifayət qədər. Azərbaycanın xalq artisti Niyaməddin Musayev, Musa Musayev, Vüqar Usubov, Elxan Şirinov, Xaləddin Qubadov, Yaqub Cavadov, Hikmət Aslanov, Əflatun, Nazil Atalarov, Şakir Quliyev, Akif Təvəkküloğlu, Ədil Arifoğlu və başqaları ilk addımlarını məhz bizim yanımızda atmışlar və bu gün də İmişli ilə çox mehriban münasibətlər saxlayırlar.

***- Hər şeyin bir sonluğu olduğu kimi bizim söhbətimizə də yekun vurmaq vaxtı çatır, İsmayıl müəllim. Fürsət varkən sizi öz adımızdan, «Mədəni-maarif» və «Həqiqət və reallıq»ın çoxsaylı oxucuları adından «60 və 35» yubileyləri ilə əlaqədar səmimi qəlbdən təbrik edirik. Can sağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayırıq. Yubileyinizdə görüşənədək!***

**İsrafil QULİYEV,**
**«Həqiqət və reallıq» qəzetinin baş redaktoru, «Qızıl qələm» mükafatı laureatı**



